UOT 338.46

*Rəfael Sabir oğlu HÜSEYNOV*
*Azərbaycan Kooperasiya Universitetinin dissertantı*

# AQROBİZNES SİSTEMİNDƏ İQTİSADİ ƏLAQƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ ELEKTRON XİDMƏTLƏRİN ROLU

*Xülasə*

Milli iqtisadiyyatın müxtəlif sahələri bir-biri ilə qarşılıqlı əlaqədə səmərəli fəaliyyət göstərirlər. Onlar arasında istehsal, maliyyə və təsərrüfat əlaqələrinin elektronlaşdırılması hazırda vacib məsələlərdən biridir. Çünki bu, təsərrüfat subyektlərinin vaxt və pul itkilərinin qarşısının alınmasında mühüm rol oynayacaqdır. Bu baxımdan sahələrarası əlaqələrin təkmilləşdirilməsində elektonlaşdırmanın üstünlüklərindən istifadə olunması zəruridir.

Təqdim olunan məqalədə aqrobiznesin inkişaf meyilləri və bu sahədə elektron xidmətlərin təşkilinin müasir istiqamətləri öz əksini tapmışdır.

***Açar sözlər: sahibkarlıq, xidmət, rəqabət, maliyyə, informasiya, istehsal, investisiya.***

### *Giriş*

Respublikamızda aparılan məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində kənd təsərrüfatında sahibkarlığın inkişafına əlverişli şərait yaradılmışdır. İqtisadiyyatın bu sektorunda da islahatların həyata keçirilməsi uğurla davam etdirilir. Bunun nəticəsində aqrar iqtisadiyyatın sahəvi strukturunda əsaslı dəyişikliklər baş vermişdir. Ölkə əhalisinin əksər hissəsinin kənd təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını və bu sahədə hərtərəfli imkanların mövcudluğunu nəzərə alaraq demək olar ki, şanlı ordumuz tərəfindən otuz illik bir dönəmdə işğal altında qalmış torpaqlarımızın işğaldan azad olunması da kənd təsərrüfatının inkişafında yeni perspektivlər yaratmışdır. İşğaldan azad olunan ərazilərdə də kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, tədarükü, satışı və ixracı infrastrukturlarının formalaşdırılmasında, maliyyə-təsərrüfat əlaqələrinin yaxşılaşdırılmasında elektron xidmətlərin xüsusi əhəmiyyətinin olacağı heç bir şübhə doğurtmur.

### *Kənd təsərrüfatında elektron informasiya sisteminin təşkilinin zəruriliyi və üstünlükləri*

Məlum olduğu kimi, kənd təsərrüfatı sahələri qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bu sahədə torpağın əsas istehsal amili olması və eyni zamanda onun kənd təsərrüfatı məhsulunun qiymətinə və mübadiləsi imkanlarına təsir dərəcəsinin əhəmiyyətli olmasına şərait yaradır. Bu baxımdan ərzağa olan daxili tələbatın daha dolğun ödənilməsi üçün müasir texnika və texnologiyadan geniş istifadə olunmalı, aqrar istehsalın avtomatlaşdırılması və torpağın yüksək texnoloji emalı həyata keçirilməlidir.

Kənd təsərrüfatının sənayenin digər sahələri ilə əlaqə və münasibətlərinin tənzimlənməsi məqsədilə müvafiq əmtəələrin istehsalçılardan istehlakçılara doğru ötürülməsi prosesinin izlənilməsi zəruri hesab olunur. Həmin proseslə bağlı əməliyyatların idarə olunması məqsədilə "aqrobiznes" anlayışından istifadə olunur. Aqrobiznes anlayışı əsasən kənd təsərrüfatının resurs təminatını həyata keçirən sahələr, həmçinin məhsulların satışı, emalı və bölgüsü proseslərini əhatə edir. Təcrübə göstərir ki, kənardan alınan resursların dəyəri bəzən kənd təsərrüfatı məhsullarının dəyərinin yarısına qədərini təşkil edir. Ona görə də aqrobiznesin səmərəliliyinə təsir edən və onun yüksəldilməsini şərtləndirən amilləri aşkar etmək, qiymətləndirmək və müvafiq tədbirlər görmək lazım gəlir.

Aqrar sfera istehsal vasitələrindən istifadə sahəsində işlərin mövsümiliyi, məhsulların saxlanılması və emalı xüsusiyyətləri ilə fərqlənir. Bütün bunlar isə öz növbəsində aqrar biznes fəaliyyətinin təşkilinə öz təsirini göstərir. Reallıq naminə aqrar biznes sferasında iqtisadi münasibətlərin xarakterik xüsusiyyətlərinin nəzərdən keçirilməsi məqsədəuyğundur.





| **Aqrar biznes sferasında iqtisadi münasibətlərin xüsusiyyətləri** | |
|---|---|
| **Əmtəələrin nisbi həmcinsliyi** | **Yüksək sahibkarlıq riski** |
| Çoxlu sayda müstəqil sahibkarların olmasına görə əmtəə kütləsinin yüksək rəqabət qabiliyyətliliyi | Kənd təsərrüfatı əmtəələrilə müqavilədə qiymət qeyri-paritetliliyinin sahələr arasında ekvivalent əlaqələrin daimi pozulmasına keçməsi |
| Kənd təsərrüfatı istehsalındakı tərəddüdlərlə əlaqədar bazar konyunkturasının qeyri-dayanıqlılığı | Bazarın inkişafına dövlət tərəfindən əhəmiyyətli müdaxilə |

***Şəkil 1. Aqrobiznesin xarakterik xüsusiyyətləri.***

Aqrobiznesin xarakterik xüsusiyyətləri ilə yanaşı onun müasir problemlərinin araşdırılması da mühüm əhəmiyyətə malikdir. Mənbələrdə daha çox istehsal məsələsi ön plana çıxarılsa da, demək olar ki, emal, satış və ixrac sferalarında da ciddi problemlər vardır. Hazırda qloballaşma, elektronlaşma və rəqəmsallaşmanın başlıca inkişaf meyarlarına çevrilməsi mövcud geriliklərin qısa müddətdə aradan qaldırılmasını tələb edir. Ona görə ki, həmin priseslərdə vaxt baxımından gecikmələrə yol verilməsi bazarın və rəqabət qabiliyyətinin itirilməsi deməkdir. Bu baxımdan seçilmiş aqrar strategiyanın davam etdirilməsi və əlavə tədbirlər kompleksinin həyata keçirilməsi lazımdır. Burada:

- aqrobiznes iştirakçılarına dövlət hesabına marketinq xidmətlərinin göstərilməsi;
- ilkin mərhələdə aqrar istehsal məhsullarının ixracının təşviqi və subsidiyalaşdırılması;
- yeni fəaliyyətə başlayan aqrobiznes subyektlərinə ödənişsiz konsaltinq xidmətlərinin göstərilməsi;
- aqrobiznes subyektlərinə fəaliyyətlərinin ilk beş ilində dövlət hesabına təlim və treyninqlərin keçirilməsi;
- aqrar sahənin intensiv inkişafının təmin edilməsi istiqamətində innovasiyalardan istifadə imkanlarının genişləndirilməsi;
- istehsal, tədarük və emal sferaları arasında kooperasiya əlaqələrinin təkmilləşdirilməsi;
- istehsalçılar, kommersiya qurumları və ixracatçılar arasında gəlirlərin bölüşdürülməsinə nəzarət;
- aqrobiznes iştirakçılarının ortaq gəlirlərinə zəmanət verən qiymət sisteminin tətbiqinə keçidin təmin olunması kimi tədbirlərin reallaşdırılması nəzərdə tutulur.

Onu da qeyd etmək lazımdır ki, göstərilən istiqamətlər üzrə konkret tədbirlər həyata keçirilməkdədir və müəyyən nəticələr əldə olunmuşdur. Belə ki, son dövrlərdə respublikada kənd təsərrüfatının inkişafında yüksək artım dinamikası müşahidə olunmaqdadır. Bunu həmin sahəyə maliyyə və infrastruktur baxımından dövlət dəstəyi ilə yanaşı texniki yardımların göstərilməsi, həmçinin innovasiyaların tətbiqinin sürətləndirilməsi ilə əlaqələndirmək olar. Bu baxımdan yeni yaradılmış innovativ sistemlərdən biri olan "Elektron kənd təsərrüfatı" informasiya sistemini xüsusi qeyd etmək lazımdır. Azərbaycan Respublikasında kənd təsərrüfatının rəqabətqabiliyyətliliyinin artırılmasında elektron xidmətlərin təşkilinin və təkmilləşdirilməsinin böyük əhəmiyyəti vardır. Belə ki, elektron xidmətlərin təşkili ilk növbədə mövcud iqtisadi əlaqələrin yaxşılaşdırılmasına şərait yaradır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılmasının hüquqi əsasları müəyyən olunmuş, onun təşkilati və texnoloji əsasları müəyyən edilərək, kənd təsərrüfatının idarə edilməsinin dünya təcrübəsi əsasında təkmilləşdirilməsinə şərait yaradılmışdır. Bundan əlavə, respublikanın kənd təsərrüfatında ceyn texnologiyalarının tətbiqi ceyn avadanlıqlarından istifadə imkanlarını genişləndirmişdir ki, bunun da bilavasitə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaratdığı imkanlardan irəli gəldiyini

söyləmək olar. Son nəticədə elektron xidmətlərin altsistemlərinin fəaliyyətinin təmin olunmasının kənd təsərrüfatında iqtisadi səmərəliliyin yüksəldilməsinə əsaslı zəmin yaradacağı şübhəsizdir.

Azərbaycanda aqrar iqtisadiyyatın inkişafı struktur yenidənqurma, sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi, istehsal həcminin artırılması və bu qəbildən olan digər strateji hədəflərin reallaşdırılması ilə müşayiət olunmaqdadır. Aqrobiznesin inkişafına dair yaxın və uzunmüddətli dövrü əhatə edən prioritet vəzifələrin həyata keçirilməsi və müvafiq hədəflərin müəyyən olunması isə aqrar sahənin tərəqqisində yeni mərhələdir. Bu mərhələdə ölkənin valyuta ehtiyatlarının və milli gəlirlərin formalaşmasında aqrobiznesin payının artırılmasının təmin edilməsi başlıca məqsədlərdən biri kimi qəbul edilir.

Qeyd olunanlar ölkədə aqrobiznesin fəaliyyət strategiyasının işlənilməsini və reallaşdırılmasını tələb edir. Bu baxımdan aqrobiznesin tədricən elektronlaşdırılması, onun hüquqi, təşkilati və iqtisadi əsaslarının təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatı sahələrinin yeni texnologiyalara, elektronlaşdırma xidmətlərinə tələbatının artması və aqrobiznesin rəqəmsallaşması sahənin inkişafı imkanlarını müəyyən edir. Təsadüfi deyil ki, respublikamızda telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsində aqrobiznesdə elektronlaşma sistemi strateji hədəf kimi seçilmişdir.

Aqrobiznesdə elektronlaşdırmanın təşkilinin müasir vəziyyətini təhlil edərkən nəticələrdən məlum olur ki, elektronlaşdırma tədbirləri aqrar sahədə reallaşdırılmaqdadır. Başqa sözlə, Azərbaycanda ərzaq təminatının yaxşılaşdırılması strategiyasının həyata keçirildiyi dövrdən etibarən aqrobiznesdə elektronlaşdırma xidmətlərinin təşkili işlərinə start verilmişdir. Aqrobiznes qarşısında duran digər əsas məsələlərdən biri də yetişdirilmiş ərzaq və qida məhsullarının qısa zaman kəsiyində yerli, regional və dünya bazarlarına çıxarılmasının təmin olunmasıdır. Göstərə bilərik ki, son dövrlərdə Rusiya Federasiyasına pomidor ixracında yaranmış maneələr sahənin potensialından səmərəli istifadəyə mənfi təsir etməklə bərabər onun perspektiv inkişafına da mənfi təsir etməkdədir. Lakin ixracatçıların bu problemlərlə üzləşməməsi üçün vaxtında elektron vasitələrdən istifadə etməklə elektron ticarətin təşkilinə keçid təmin olunmalı idi. Hətta fyuçers müqavilələrinin bağlanılması və bu müqavilələrin təmin etdiyi imkanlardan bəhrələnməklə yeni müştəri kontingentinin formalaşdırılması mümkündür. Bütövlükdə elektronlaşmış iqtisadi əlaqələrin yaradılması, alqı-satqı əməliyyatlarının aparılması və onların həcminin artırılmasının hüquqi mexanizmlərinin müəyyənləşdirilməsi lazımdır.

Aqrar sektorun inkişafının daim dövlətin diqqət mərkəzində olması və dövlət tərəfindən dəstəklənməsi, eləcə də sahənin inkişaf tempinin sürətləndirilməsi məqsədilə istehsalçılara maliyyə yardımlarının göstərilməsi ilə bərabər hazırkı istehsal-təsərrüfat əlaqələri sahənin dövlət tərəfindən dəstəklənməsində şəffaflıq və hesabatlılıq prinsipinin gözlənilməsini də tələb edir. Aqrar sahədə mövcud və formalaşmaqda olan iqtisadi əlaqələrin operativliyinin təmin edilməsi məhz "Elektron kənd təsərrüfatı" informasiya sisteminin təşkili və idarə edilməsinin təkmilləşdirilməsindən asılıdır.

Kənd təsərrüfatı sahəsində iqtisadi əlaqələrin yaxşılaşdırılması məqsədi ilə elektron xidmətlərin göstərilməsi üçün informasiya bazası yaradılmaqdadır. Hər bir istehsalçı üzrə tamlıqla mövcud olan informasiya toplusu mərkəzləşdirilməlidir. Onun gələcəkdə istifadəsinin asanlaşdırılması, toplanılması və işlənilməsinin sadələşdirilməsi məqsədilə avtomatlaşdırılması təmin edilməlidir. Azərbaycan Respublikasının iqtisadiyyatının rəqəmsal əsaslarla təşkili dövründə bu, önəmli məsələlərdən biridir. Müasir tələblərə cavab verən informasiya bazası eyni zamanda həm də informasiya kapitalı hesab olunur. Bu baxımdan "Elektron kənd təsərrüfatı" informasiya sistemi Azərbaycan Respublikasının mülkiyyətidir. [1]

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "Elektron kənd təsərrüfatı" informasiya sisteminin bir sıra altsistemləri yaradılmışdır ki, buraya "Elektron xidmətlər" və "Lisenziyaların reyestri" altsistemlərini aid etmək olar. Bütün bunlar və "Elektron xidmətlər portalı"nı birləşdirən Vahid Elektron Xidmətlər Sisteminin hazırlanması zərurəti yaranmışdır. Bu sistemin yaradılması kənd təsərrüfatında təklif olunan xidmətlərin, görüləcək işlərin təklif sorğusu yolu ilə satınalınmasının reallaşdırılması imkanlarının təmin olunmasına xidmət edir.





Aqrar sahədə iqtisadi əlaqələr müqavilələr vasitəsi ilə tənzimlənir. Təbii ki, bağlanan satınalma müqaviləsi üzrə aparılacaq ödənişlər nağdsiz qaydada həyata keçirilir. Müqavilələrdə malgöndərən tərəfindən təklif edilən məhsullar və podratçı tərəfindən görüləcək işlər və onların dəyəri qeyd olunur. Müqavilələrdə əlavə olaraq, nəqliyyat, vergi, sığorta xərcləri ayrılıqda aqrar təsərrüfat subyektinin, yaxud sahibkarın nəzərinə çatdırılır. Əgər mallar idxal əməliyyatlarının obyektidirsə, onda gömrük rüsumları da müqavilələrdə verilir. Beləliklə, aqrar müəssisələrin iqtisadi əlaqələri çərçivəsində xidmət müqavilələrində yerinə yetiriləcək işlərin bütün tələblərə cavab verməsi əsaslandırılmalıdır.

Qeyd etmək lazımdır ki, fermerlərlə yaxınlığı təminetmə baxımından "Elektron kənd təsərrüfatı" informasiya sisteminin xüsusi əhəmiyyəti vardır. Bu sistem fermerlərin şəffaf və səmərəli idarəetməsini təmin etməklə bərabər sahədə innovasiyanın tətbiqini asanlaşdırır. "Elektron kənd təsərrüfatı" informasiya sistemi daxili və xarici əlaqələrdə inteqrasiya imkanlarını artırır. Hazırda sahə qarşısında duran əsas məsələlərdən biri kənd təsərrüfatı zəncirinin, onun iqtisadi əlaqələrinin qurulmasıdır. "Elektron kənd təsərrüfatı" informasiya sistemi aqrobiznes proseslərini hərtərəfli əhatə edə biləcək modulların formalaşmasını təmin edir. Bu sistem kənd təsərrüfatı məhsullarının başlanğıc mərhələsindən yekun mərhələsinə kimi bütün prosesləri tam şəkildə əhatə etməklə yanaşı operativliyin təmin olunmasına, həmçinin iqtisadi əlaqələrin genişləndirilməsinə və şəffaflığın təmin edilməsinə xidmət edir.

**"Elektron kənd təsərrüfatı"informasiya sistemi aqrar sahədə iqtisadi əlaqələrin inkişafı meyilləri**

"Elektron kənd təsərrüfatı" informasiya sistemi aqrar sahədə iqtisadi əlaqələrin yaxşılaşdırılmasında elektron xidmətlərin düzgün həyata keçirilməsini müəyyən edir. İqtisadi əlaqələrə nəzarət mexanizminin qurulması da bu sistemlə əlaqədardır. Elektron xidmətdən yararlanan subyektlər real vaxt rejimində iqtisadi əlaqələrin izlənilməsi imkanlarını genişləndirir. Kənd təsərrüfatında elektron xidmətlərin təşkili onun bütün sahələrində olduğu kimi daxili və xarici iqtisadi əlaqələrində də inteqrasiya imkanlarını genişləndirir. Kənd təsərrüfatında istehsal-təsərrüfat fəaliyyəti ilə bağlı olan iqtisadi əlaqələrin qurulması elektron xidmətlərin tamamlanmasının nəticəsidir. Aqrar sferada elektron xidmətlərin təşkili sahənin hərtərəfli təhlil olunma imkanlarını genişləndirir. Bu sahədə müasir texniki problemlərin həlli elektron xidmətlərin tətbiqi ilə daha da asanlaşır. Eyni zamanda kənd təsərrüfatında "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması sahədə real məlumatlar əsasında inkişaf proqnozlarının işlənib hazırlanmasına geniş imkanlar yaradır.

Kənd təsərrüfatında iqtisadi əlaqələrin yaxşılaşdırılması məqsədilə yaradılan elektron xidmətlərin təşkili əlavə vaxt itirmədən bu əlaqələrin qurulmasında və operativ həll edilməsində böyük rol oynayır. Kənd təsərrüfatında analitik və maliyyə hesabatlarının hazırlanması, planlaşdırmanın aparılması daha çox elektron xidmətlərə əsaslanır. Kənd təsərrüfatında elektron xidmətlər indiki dövrün əsas tələbi kimi "Big Data"nın yığılması və formalaşdırılması imkanları yaradır.

Kənd təsərrüfatında sahibkarlıq mühitinin inkişafı sahəsində aparılan tədbirlər kompleksi bu təsərrüfatda iqtisadi əlaqələrin təkmilləşdirilməsini təmin edir. Normativ-hüquqi aktlar haqqında yetərincə bazar subyektlərinin biliklərinin olmaması iqtisadi əlaqələrin səmərəli təşkilinə mənfi təsir göstərir. Odur ki, aqrar sahədə sahibkarların qüvvədə olan hüquqi-iqtisadi mexanizmlər üzrə kifayət qədər məlumatlarının olmadığı üçün onlara qüvvədə olan qanunlar, ölkə prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları, Nazirlik, Komitə və digər mərkəzi hakimiyyət orqanlarının kənd təsərrüfatının təşkilinə və inkişafına imkan verən normativ-hüquqi aktları barədə kifayət qədər informasiyaların verilməsi və bu məlumatların yayılması üçün elektron xidmətlərin təşkili çox vacib idi.

Aparılan islahatların məntiqi nəticəsi kimi son illərdə ölkəmizdə aqrar sahibkarlığın inkişafında əsaslı irəliləyişlər müşahidə olunur, kənd təsərrüfatında özəl bölmənin xüsusi çəkisi tədricən artır. Həmin müsbət dinamikanın əldə olunmasında iqtisadi əlaqələrin genişlənməsi və təkmilləşdirilməsi mühüm amillərdən biri kimi qiymətləndirilə bilər. Kənd təsərrüfatında iqtisadi əlaqələrin yaxşılaşdırılması isə bilavasitə elektron xidmətlərin tətbiqinin nəticəsidir desək, yanılmarıq. Aqrar

sahənin inkişafında payı ilbəil artan sahibkarlıq qurumlarına investisiya qoyuluşlarının, o cümlədən əvəzsiz maliyyə yardımlarının ayrılmasında və aqrar istehsalçıların iqtisadi əlaqələrinin yaxşılaşdırılmasında elektron xidmətlərin yaradılması üzrə zəruri tədbirlərin həyata keçirilməsi ciddi iqtisadi sıçrayışa səbəb olmaqdadır. [2, s.147]

Aparılan iqtisadi araşdırmalar və təhlillər göstərir ki, aqrar sahədə aparılan islahatlar istehsalçıların təsərrüfat müstəqilliyini təmin etmişdir. Aqrar istehsal subyektləri isə öz torpaq sahələrini və əmlaklarını özəlləşdirərək, yeni mütərəqqi iqtisadi münasibətlər sistemini formalaşdırırlar. Bununla yanaşı aqrar sahənin mövcud inkişaf səviyyəsi və bu sahədə iqtisadi əlaqələrlə bağlı aşağıdakı meyilləri ümumiləşdirmək olar:

- respublikada aqrar sahənin elektron xidmətləri üzrə qanunvericilik bazası formalaşdırılmışdır, "Elektron kənd təsərrüfatı" informasiya sisteminin təkmilləşdirilməsi ardıcıl olaraq davam etdirilir;
- aqrar sahədə iqtisadi əlaqələrin inkişafına əlverişli şərait yaratmaq üçün elektron xidmətlərin təşkili, iqtisadi və hüquqi tədbirlər sistemi həyata keçirilmişdir;
- aqrar sahədə təkmilləşdirilmiş "Elektron kənd təsərrüfatı" informasiya sisteminin təşkili üçün daxili və xarici iqtisadi əlaqələr qurulmuş, kənd təsərrüfatında dünya standartlarının tələblərinə cavab verən yeni istehsal və xidmət sahələri formalaşdırılmışdır;
- "Elektron kənd təsərrüfatı" informasiya sistemi aqrar sahənin inkişafı məqsədilə əvəzsiz maliyyə yardımlarının, o cümlədən sahəyə iqtisadi investisiyaların qoyuluşunu təmin etmişdir.

Bütün yuxarıda qeyd olunan nailiyyətlərlə bərabər respublikamızın aqrar sahəsində bəzi problem və çətinliklər hələ də qalmaqdadır. Lakin hazırda öz iqtisadi və maliyyə fəaliyyətini müstəqil olaraq təşəbbüskarlıqla reallaşdıran aqrar sahibkarlar iqtisadi əlaqələrin yaxşılaşdırılması sahəsində qarşılaşdıqları əsaslı problemlərin həllində elektron xidmətin yardımına arxalanırlar. Elektron xidmətin operativ məlumatları əsasında dövlət aqrar sahibkarlara maliyyə yardımlarının ayrılması zərurətini müəyyən etməklə onlara iqtisadi, təşkilati və texniki yardım göstərir.

Hazırda aqrar sahibkarların əsas problemi mövcud vəziyyətlə əlaqədar iqtisadi əlaqələrin təşkilində olan çətinliklər ucbatından istehsal prosesini tam qura bilməmələri və yaxud istehsal etdikləri kənd təsərrüfatı məhsullarını sata bilməmələridir. Onlar dövlətin iqtisadi yardımlarına böyük ehtiyac duyduqlarını, habelə texnika, yanacaq və sürtgü materiallarını daha ucuz qiymətlərlə əldə etmək istəklərini nümayiş etdirirlər. Məsələ ondan ibarətdir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ya bu işə başlamaq istəyənlərin çoxunun təsərrüfat formasının seçilməsi, biznes-plan, girov, maya dəyəri, xalis gəlir, idarəetmə, marketinq və s. bu kimi iqtisadi terminlər barədə təsəvvürləri olduqca azdır. Aparılmış sorğulardan bəlli olmuşdur ki, onlar qabaqcadan işlərini planlaşdırmaqda, bazarın öyrənilməsində və müştərilərlə iş aparmaqda, xərclərin və gəlirlərin hesablanmasında və özlərinin fəaliyyətlərinin nəticələrininin qiymətləndirilməsində çətinlik çəkirlər.

Aqrar sahibkarlar ilk növbədə özünün daxili imkanlarını və real vəziyyəti nəzərə alaraq, iqtisadi əlaqələri elektron xidmətlər əsasında düzgün qurmağı və məqsədyönlü şəkildə idarə etməyi bacarmalıdır. Aqrar istehsalçılar istehsal texnologiyalarını, aqrotexniki və zoobaytar qaydaları yaxşı bilməmələri səbəbindən qarşıya qoyduqları məqsədlərə nail ola bilmirlər. Bu da onların iqtisadi əlaqələrinin təkmilləşdirilməsi prosesində elektron xidmətlərin təşkilini zəruri edir və həmin istehsalçıların fəaliyyəti mənfəətlə başa gəlir.

Aqrar sahibkarların səmərəli fəaliyyətinə təsir göstərən problemlərdən biri də iqtisadi əlaqələrin təşkilində olan çatışmazlıqlardır ki,bu da daha çox aşağıdakı problemlərin yaranmasına səbəb olur:

- sahənin maddi-texniki bazasının zəif olması sahibkarlara yeni texnika, ehtiyat hissələri, gübrələr, bitki-mühafizə və heyvan xəstəliklərinə qarşı mübarizə vasitələrinin əldə edilməsində maddi və təşkilati çətinliklər yaradır;
- sahibkarlar kreditlərin alınmasında çətinliklərlə üzləşirlər;
- sahibkarların müxtəlif aqroxidmətlərə (texniki, aqronomik, baytarlıq, iqtisadi, hüquqi və s.) olan tələbatları tam ödənilmir;





- aqrar istehsalda ixracın stimullaşdırılmasına investisiyaların cəlb olunması ləngiyir;
- iri emal müəssisələrinin yeniləşdirilməsi, habelə yerlərdə kiçik həcmli ət, süd, meyvə, tərəvəz emalı üzrə infrastruktur sahələrin yaradılması prosesi qeyri-bərabər şəkildə həyata keçirilir;
- aqrar sahənin yeni elektron xidmətin təşkilinə uyğun təşkilatlanması, informasiya-məsləhət sisteminin formalaşdırılması prosesləri geri qalır. [4, s. 348]

Tədqiqatlar göstərir ki, aqrar sahədə fəaliyyət göstərən sahibkarlar hazırda ən azı üç subyektin-təbii inhisarçıların, emal müəssisələrinin və vasitəçi təşkilatların iqtisadi təzyiqlərinə məruz qalır. Bu da işi səmərəli təşkil edə bilməyən bəzi məhsul istehsalçılarının ili mənfəətlə yox, zərərlə başa vurması ilə nəticələnir. Odur ki, bəzi aqrar təsərrüfat subyektləri maliyyə vəsaitlərini itirir və növbəti təsərrüfat ilində istehsal imkanlarından məhrum olurlar. Aqrar məhsullar bazarında lokal inhisarçılığın mövcudluğu, bu sahədə iqtisadi əlaqələrin formalaşmasında elektron xidmətlərin təşkili ilə inhisarçılığın azaldılmasına yönəldilmiş tədbirlərin səmərəsini azaldır.

Aqrar sahədə sahibkarlığın inkişafına mane olan səbəblərdən biri də iqtisadi əlaqələrin təşkili səviyyəsinin lazımi səviyyədə olmamasıdır. Yaranmış vəziyyət aqroservis sahələri, maddi-texniki təchizat, təmir və texniki xidmət, suvarma və s. üzrə iqtisadi əlaqələrin elektron xidmət əsasında təşkilinin təkmilləşdirilməsini, həmçinin istehsal olunmuş məhsulların saxlanılması, tədarükü, daşınması, ilkin emalı kimi məsələlərin elektronlaşdırmanın üstünlüklərindən istifadə etməklə həllini tələb edir. Bu baxımdan kənd təsərrüfatında yaradılan "Elektron kənd təsərrüfatı" informasiya sistemində fermerlərin fərdi məlumatları onların elektron kabinetində öz əksini tapır. Bu da fermerlərə kənd təsərrüfatı sahəsində effektiv xidmətlərin vaxtında və nisbətən ucuz tariflərlə göstərilməsinə şərait yaradır. Fərdi məlumatların tam şəkildə "Elektron kənd təsərrüfatı" informasiya sistemində yerləşdirilməsi və işlənilməsi "Fərdi məlumatlar haqqında" Qanuna uyğun olaraq aparılır. Hesab edirik ki, elektron informasiya sisteminə daxil edilən məlumatlar mövcud və ardıcıl olaraq genişlənməkdə olan iqtisadi əlaqələri tam şəkildə özündə əks etdirməlidir. Bununla yanaşı iqtisadi əlaqələrin sıxlığından və əhəmiyyətindən asılı olaraq, bəzi iqtisadi əlaqələr zamanı elektron xidmətlərə görə dövlət rüsumundan azadolmalar və güzəştlər müəyyən edilməsi sisteminə dövri şəkildə yenidən baxılmalıdır.

## ƏDƏBİYYAT


1. "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə. Bakı, 23 dekabr 2019.
2. Quliyev E.A. Aqrar iqtisadiyyat, dərslik, Bakı, 2015.
3. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı, monoqrafiya, Bakı, 2016.
4. İlham Əliyev və müasir aqrar siyasət. Bakı, 2013.
5. aqrar.az saytı


***Рафаэл Сабир оглы Гусейнов***

***диссертант Азербайджанского Университета Кооперации***

**Роль электронных услуг в совершенствовании экономических отношений в системе агробизнеса**

***Резюме***

Различные отрасли национальной экономики эффективно функционируют во взаимодействии друг с другом. Электронизация производства, финансово-экономических отношений между ними сегодня является одним из важнейших вопросов. Потому что это предотвращает потерю времени и денег хозяйствующих субъектов. В связи с этим необходимо использовать преимущества электронизации для улучшения межотраслевых отношений.

Представленная статья отражает тенденции развития агробизнеса и современные тенденции в организации электронных услуг в этой сфере.

*Ключевые слова: предпринимательство, сервис, конкуренция, финансы, информация, производство, инвестиции.*

***Rafael Sabir Huseynov***
***dissertation of Azerbaijan Cooperation University***

**The role of electrificationin improvementof economic relations in the agribusiness system**

***Summary***

Different sectors of the national economy interact effectively with each other. The electronicization of production, financial and economic relations between them is one of the most important issues today. Because it prevents the loss of time and money of economic entities.In this regard, it is necessary to use the advantages of electronic in improving inter-sectoral relations.

The presented article reflects the development trends of agribusiness and modern trends in the organization of electrificationin this area.

***Key words: entrepreneurship, service, competition, finance, information, production, investment.***